**"Bakı-Tbilisi-Qars yeni dəmir yolu" layihəsinin həyata keçirilməsi ilə əlaqədar tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 21 fevral tarixli 1974 nömrəli Sərəncamında dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Bakı-Tbilisi-Qars yeni dəmir yolu" layihəsinin həyata keçirilməsi ilə əlaqədar tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 21 fevral tarixli 1974 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 2, maddə 155; 2014, 6, maddə 644; 2016, 8, maddə 1384) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissə ilə təsdiq edilmiş Dövlət Komissiyasının tərkibi aşağıdakı redaksiyada verilsin:

"**Komissiyanın sədri**

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası maliyyə nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikasının Dövlət Neft Fondunun icraçı direktoru".

2. 2-ci hissədə "Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinə" sözləri "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinə" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 yanvar 2017-ci il
2606